**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Bakı Dövlət Universiteti**

# 5713.01 – "Sami dilləri (ərəb dili)" ixtisası üzrə fəlsəfə doktoru proqramı əsasında ixtisas imtahanı

# PROQRAMI

**Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Elmi Şurasının qərarı ilə tövsiyə edilmişdir.**

**(2026-ci il  31 mart 5 saylı protokol)**

**BAKI – 2026**

**Tərtib edənlər:** f.ü.f.d. Könül Eyvazova

**Elmi redaktor :** f.e.d., prof. Vüqar Qaradağlı

**Rəyçilər:** f.ü.f.d. Təranə Əkbərova

## İZAHAT VƏRƏQİ

BDU-nun Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kafedrası tərəfindən 5713.01 Sami dilləri (ərəb dili) ixtisası üzrə doktorantura səviyyəsində ixtisas imtahanının keçirilməsi məqsədilə hazırlanmış bu proqramın əsas məqsədi namizədlərin ərəb dili və ərəb dilçiliyi sahəsində elmi-nəzəri hazırlıq səviyyəsinin müəyyənləşdirilməsidir.

Ərəb dili zəngin tarixi inkişaf yolu keçmiş, geniş coğrafiyada yayılmış və dünya mədəniyyəti tarixində mühüm yer tutan dillərdən biridir. Müasir dövrdə bir sıra dövlətlərin rəsmi dili olmaqla yanaşı, beynəlxalq münasibətlər, elm, təhsil və mədəniyyət sahələrində mühüm kommunikasiya vasitəsi kimi çıxış edir. Eyni zamanda, bu dil İslam mədəniyyətinin və klassik Şərq elmi-fəlsəfi irsinin əsas daşıyıcılarından biri kimi xüsusi əhəmiyyətə malikdir.

Ərəb qrammatika elmi VII–VIII əsrlərdən etibarən sistemli şəkildə formalaşmağa başlamış və klassik dövrdə yüksək nəzəri səviyyəyə yüksəlmişdir. Bu prosesdə Bəsrə və Kufə qrammatika məktəbləri mühüm rol oynamış, dil hadisələrinin elmi təsviri və qrammatik normaların müəyyənləşdirilməsi istiqamətində mühüm nəzəri prinsiplər irəli sürmüşdür. Həmin məktəblərin nümayəndələri tərəfindən qələmə alınmış əsərlər ərəb dilçiliyinin nəzəri əsaslarını formalaşdırmış və sonrakı dövrlərdə dilçilik fikrinin inkişafına əhəmiyyətli təsir göstərmişdir.

Hazırlanmış proqram ərəb dilinin fonetika, morfologiya, sintaksis və leksikologiya bölmələrini, eləcə də ərəb qrammatika ənənəsinin təşəkkülü və inkişaf mərhələlərini kompleks şəkildə əhatə etməklə, namizədlərin proqramda nəzərdə tutulan mövzular üzrə nəzəri biliklərinin, həmin bilikləri elmi əsaslarla təhlil etmək, ümumiləşdirmək və nəzəri müddəaları sistemli, ardıcıl və əsaslandırılmış şəkildə şərh etmək bacarıqlarının obyektiv qiymətləndirilməsinə yönəldilmişdir.

## PROQRAMIN MƏZMUNU

Proqram ərəb dilinin fonetika, morfologiya, sintaksis və leksikologiya bölmələrinin əsas xüsusiyyətlərini, eləcə də ərəb qrammatika ənənəsinin təşəkkülü və inkişaf mərhələlərini əhatə edir.

**Ərəb dili və ərəb dilçiliyi**
Ərəb dilinin mənşəyi və tarixi inkişaf mərhələləri: qədim, klassik və müasir ərəb dili.
Ərəb dilinin struktur xüsusiyyətləri və flektiv quruluşu.
Ərəb qrammatika elminin təşəkkülü və klassik qrammatik ənənənin formalaşması.
Bəsrə qrammatika məktəbi və onun görkəmli nümayəndələri.

Bəsrə qrammatika məktəbinin əsas mənbələri və  xüsusiyyətləri.
Kufə qrammatika məktəbi və onun görkəmli nümayəndələri.
Küfə qrammatika məktəbinin əsas xüsusiyyətləri.
Bağdad qrammatika məktəbi və onun görkəmli nümayəndələri.
Əndəlus qrammatika məktəbi və onun görkəmli nümayəndələri.
Misir qrammatika məktəbi və onun görkəmli nümayəndələri.
Müasir ərəb dilçiliyinin inkişaf istiqamətləri.

**Fonetika**

Ərəb dilinin fonetikası haqqında ümumi məlumat. Ərəb dilində sait və samitlərin təsnifatı. Heca. Vurğu. Səs birləşmələri [ey] [ay] [au].

**Ərəb əlifbası**.

Ərəb əlifbasının xüsusiyyətləri.  Ərəb yazısı. Köməkçi oxu işarələri - hərəkələr. Fəthə. Kəsrə. Damma. Tənvinlər. Sukun. Təşdid. Həmzə. Məddə. Vəslə.

**Morfologiya**

Morfologi  elmi haqqında ümumi məlumat. Morfologiya qrammatika elminin bir hissəsi kimi.

**Nitq hissələri.** Ərəb dilçiliyində nitq hissələrinin üç qrupa bölünməsi: isim, feil və köməkçi nitq hissələri.

**İsim.** Ərəb dilində isim haqqında ümumi məlumat. İsimlərin dörd kateqoriyaya malik olması: cins, hal, müəyyənlik və qeyri-müəyyənlik, kəmiyyət kateqoriyası.

**İsimlərin qrammatik cinsi.** Qrammatik cinsin leksik ifadəsi. Müənnəs qrammatik cinsin morfoloji ifadəsi.

**İsmin halları.** İsimlərin hallanma növlərinin təsnifatı. İsim hallarının işlədilməsi şəraiti.

**İsimlərin müəyyənliyi və qeyri-müəyyənliyi.** Müəyyənliyin morfoloji və sintaktik yollarla ifadəsi.

**İsimlərin kəmiyyəti.** Tək. Təsniyə. Cəm. “Düzgün” cəm və “Sınıq” cəm. Düzgün cəmlə cəmlənmə. Sınıq cəm formalarının xüsussiyyətləri və bu formaların “azlıq”, “çoxluq”, “sonsuzluq cəmi” və “cəmin cəmi” kimi məna qruplarına bölünməsi.

**İsimlərin mənaca növləri.** Konkret və mücərrəd isimlər. Ümumi və xüsusi isimlər. Təklik və topluluq bildirən isimlər.

**İsimlərin quruluşca növləri.** Sadə, düzəltmə və mürəkkəb isimlər.

Düzəltmə isimlər və onların növləri.

**İsimlərdən düzələn isimlər və onların mənaca növləri**: nisbi isimlər, mücərrəd isimlər, təklik, əşyanın çox olduğu yeri və qab bildirən düzəltmə isimlər.

**Feillərdən düzələn isimlər**. Məkan və zaman, alət və cihaz, peşə sahibini, peşə növünü, hərəkətin bir dəfəliyini və hərəkətin tərzini bildirən düzəltmə isimlər. Substantivləşmiş feili sifətlər.

**Mürəkkəb isimlər**. Sözlərin ixtisarı yolu ilə düzəlmiş mürəkkəb isimlər. Bütöv cümlələrdən ibarət olan isimlər. Müxtəlif söz birləçmələrindən əmələ gəlmiş mürəkkəb isimlər**.**

**Sifət.**

Sifətin mənaca növləri. Keyfiyyət bildirən sifətlər. Əlamət bildirən sifətlər. Rəng və fiziki nöqsan bildirən sifətlər. Nisbi sifətlər.

Sifətin quruluşca növləri. Düzəltmə sifətlər. İsmi sifətlər və feili sifətlər. Mürəkkəb sifətlər və onların növləri: sifət-isim izafət birləşməsi, **ذو (ذا،ذي),** أبvə أم sözlərinin sonrakı isimlə izafət əmələ gətirməsi yolu ilə düzələn mürəkkəb sifətlər.

Sifətin dərəcələri: adi, müqayisə və üstünlük. Dərəcələrin morfoloji və analitik ifadəsi.

**Say.** Miqdar sayları. Sıra sayları. Kəsr sayları. Bölüşdürmə və qat sayları. Qeyri-müəyyən saylar.

İl, ay, gün və tarixlərin ifadəsi.

**Əvəzlik**. Əvəzliklərin mənaca növləri. Şəxs əvəzlikləri. İşarə əvəzlikləri. Sual əvəzlikləri. Nisbi əvəzliklər. Qeyri-müəyyən əvəzliklər. Təyin əvəzlikləri. Bitişən əvəzliklər.

**Feil.** Feillərin quruluşca növləri. Sadə və düzəltmə feillər. Üç kök samitli feillərin düzəltmə bablar. Dörd kök samitli feillərin düzəltmə babları.

Feillərin mənaca növləri.

Kök samitlərinin fonetik xüsusiyyətlərinə görə feillərin bölgüsü. Salim feillər. Qeyri-salim feillər. Düzgün feillər (həmzəli və mudaaf feillər) və zəif feillər (misal feillər, boş feillər, naqis feillər, ləfif feillər ( ikiqat qeyri-salim feillər)).

Feillərin zamanları. Keçmiş və indiki-gələcək zaman.

Feillərin növləri: məlum və məchul. Təsirli və təsirsiz feillər.

Feillərin formaları (əmr, arzu, şərt və təkid formaları) və onların işlənmə xüsusiyyətləri.

**Zərf.** Zərfin mənaca növləri: zaman, məkan, keyfiyyət, kəmiyyət, əlamət, tərzi-hərəkət, səbəb və məqsəd zərfləri.

Zərfin quruluşca növləri. Əsl zərflər və düzəltmə zərflər. Adverbiallaşma hadisəsi.

**Köməkçi nitq hissələri**

**Ön qoşma.** Ön qoşmaların mənaca növləri: zaman, məkan, səbəb, məqsəd, vasitə, aidlik, mənsubiyyət, birgəlik, oxşarlıq, uyğunluq və s.

Bitişik və ayrı yazılan ön qoşmalar.

**Bağlayıcı.** Ərəb dilində bağlayıcılar. Bağlayıcıların növləri və təsnifi.

**Ədat.** Ərəb dilində ədatlar. Ədatların mənaca növləri. Təsdiq, sual, inkar, zaman, modallıq, təsdiq və qeyri-müəyyənlik ədatları.

**Nida.** Nidanın ifadə formaları. Nidanın təəccüb, heyranlıq və ya təəssüf bildirən ədatlarla ifadəsi. Nidanın söz və ya söz birləşməsi ilə ifadəsi. Nidanın cümlə ilə ifadəsi.

**Modal sözlər.** Ərəb dilində geniş yayılmış إِنَّ və ona bənzər modal sözlərin (إِنَّ و أَخواتها) məna və işlənmə xüsusiyyətləri.

**Sintaksis**

Sintaksisin cümlədə sözlərin birləşməsi qaydalarını öyrənən bir qrammatika sahəsi olması. Ərəb dili sintaksisinin əsas xüsusiyyətləri.

**Söz birləşməsi.** İsmi söz birləşmələri, onların uzlaşan, uzlaşmayan və qarışıq təyini söz birləşmələrinə bölünməsi.

Sifətin isimlə birləşməsi.

Uzlaşan təyini söz birləşmələri.

İşarə əvəzliyi və isim birləşməsi.

Uzlaşmayan təyini söz birləşmələri. İzafət (status-konstruktus) birləşməsi və onun təyinlik xüsusiyyəti.

İzafət birləşməsi növləri: ismin isim, miqdar sayı, sifət, sual və işarə əvəzliyi ilə birləşməsi.

**Cümlə.** Xəbərin iştirakına görə cümlənin növləri: ismi və feili cümlələr.

Mübtəda və xəbərin ifadəsinə görə ismi cümlə tipləri və onların sintaktik və semantik xüsusiyyətləri.

Xəbəri ön qoşma ilə işlənən ismi cümlələr.

**Subyektin iştirakına görə feili cümlələrin növləri**: şəxsli cümlə və şəxssiz cümlə.

**Cümlələrin quruluşca növləri:** sadə və mürəkkəb cümlə.

Tabesiz mürəkkəb cümlə. Tabesiz mürəkkəb cümlənin növləri.

Tabeli mürəkkəb cümlə. Baş və budaq cümlə. Budaq cümlələrin növləri: mübtəda, xəbər, tamamlıq, təyin, zaman, yer, şərt, səbəb və məqsəd budaq cümlələri və onları baş cümləyə bağlayan tabelilik bağlayıcıları.

**Cümlədə söz sırası.** İsmi və feili cümlədə söz sırası.

**Leksikologiya**

Ərəb dilinin əsas lüğət fondu və lüğət tərkibi.

**Alınma sözlər**. Qədim dillərdən (arami, efiop, qədim yə-hudi) alınma sözlər. Fars, yunan və latın sözlərinin arami dil vasitəsi ilə ərəb dilinə keçməsi. Alınma sözlərin ərəb dili fonetik və qrammatik qanunlarına tabe edilməsi.

**Ərəb dilində arxaizmlər və neologizmlər.**

**Ərəb dilində omonimlər.**

**Ərəb dilində sinonimlər. ərəb dilinin sinonimlərlə zəngliyi**

**Ərəb dilində antonimlər.**

**Ərəb dilində frazeoloji birləşmələr.**

**Ərəb dilində ibarələr. Hikmətli sözlər. Atalar sözləri. Zərbi-məsəllər.**

**Ədəbiyyat**

**Azərbaycan dilində:**


1. Əkbərova, T. Ə., Məmmədova, K. Ə. Ərəb dili: ali məktəblər üçün dərslik. Bakı: BDU nəşriyyatı, 2013.

2. Əl-Abbasi, X. N. Ərəbizmlərin Azərbaycan ədəbi dilində semantik dəyişiklikləri (monoqrafiya). Bakı: Bakı Universiteti nəşriyyatı, 2003.

3. Qaradağlı, V. A. Ərəb ədəbi dilində feilin təsnifi və təsrifi. Bakı: AFPoliqrAF, 2025.

4. Qaradağlı, V. A. Müasir ərəb ədəbi dili fonetikasının tədrisi. Bakı, 2008.

5. Qaradağlı, V. A. Təcvid. Bakı: Elm, 2011.

6. Mahmud, G. Y. Ərəb ədəbi dilində sinonimlik. Bakı, 2010.

7. Məlikov, T. P. Müasir ərəb dilində yeni söz və ifadələr. Bakı: Füyuzat, 2022.

8. Məmmədəliyev, V. M. Bəsrə qrammatika məktəbi. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1983.

9. Məmmədəliyev, V. M. Kufə qrammatika məktəbi. Bakı: ADU nəşriyyatı, 1988.

10. Məmmədəliyev, V. M. Ərəb dilçiliyi. Bakı: Maarif, 1985.

11. Məmmədəliyev, V. M. Ərəb ədəbi dilində feilin zaman, şəxs və şəkil kateqoriyaları. Bakı: Bakı Universiteti, 1992.

12. Məmmədov, Ə. C. Ərəb dili. Bakı, 1958-2022 illər nəşri.

13. Rzayev, X. A. Atalar sözləri. I cild. Bakı: Nurlar nəşriyyat poliqrafiya mərkəzi, 2004.

14. Şəms, İ. Q. Klassik ərəb dili morfologiyasının əsasları. Bakı: Bakı Universiteti, 1983.

**Ərəb dilində**

15. سيبويه. الكتاب. تحقيق: عبد السلام هارون. القاهرة: الهيئة المصرية العامة للكتاب، 1988.

16. ابن جني. الخصائص. تحقيق: محمد علي النجار. القاهرة: دار الهدى للطباعة والنشر، 1952.

17. الزمخشري، محمود بن عمر. المفصل في علم العربية. بيروت: دار الجيل، 1993.

18. ابن منظور. لسان العرب. بيروت: دار صادر، 1994.

19. الدكتور حسان بن عبد الله الغنيمان.واضح في الصرف. مكتبة لسان العرب.ص.

20. الغلاييني، مصطفى، جامع الدروس العربية.بيروت: المكتبة العصرية، 2007.

21. الحملاوي، أحمد . شذا العرف في فن الصرف .القاهرة: دار الكتب العلمية، 2004

22. عبد الغني، أيمن أمين . *الكافي في علم الصرف*.القاهرة: دار التوفيقية للتراث، 2011 .

23. يعقوب، إميل بديع. *المعجم المفصل في التصريف*. بيروت: دار الكتب العلمية، 1996

**Rus dilində**

24. Гранде, Б. М. Курс арабской грамматики. Москва: Издательство восточной литературы, 1963.

25. Беляев, В. И. Арабский язык. Москва: Издательство Московского университета, 1965.

26. Юшманов, Н. В. Грамматика литературного арабского языка. Москва–Ленинград: Издательство АН СССР, 1940.

27. Шагаль, В. Э. Арабский язык: Учебник для вузов. Москва: Высшая школа, 1983.

28. Белкин, В. М. Арабская лексикология. Москва, 1975.

**İngilis dilində**

29. Wright, William. A Grammar of the Arabic Language. 3rd ed. Cambridge: Cambridge University Press, 1967.

30. Fischer, Wolfdietrich. A Grammar of Classical Arabic. New Haven & London: Yale University Press, 2002.

31. Versteegh, Kees. The Arabic Language. 2nd ed. Edinburgh: Edinburgh University Press, 2014.

32. Holes, Clive. Modern Arabic: Structures, Functions and Varieties. Rev. ed. Washington, D.C.: Georgetown University Press, 2004.
33. Watson, Janet C. E. The Phonology and Morphology of Arabic. Oxford: Oxford University Press, 2007.
34. Haywood, J. A., Nahmad, H. M. A New Arabic Grammar of the Written Language. London: Lund Humphries, 1965.
35. Stetkevych, Suzanne Pinckney. The Modern Arabic Literary Language. Chicago: University of Chicago Press, 1970.

**Türk dilində**

1. Karaman, Hayrettin. Arapça Dilbilgisi (Sarf ve Nahiv). İstanbul: Ensar Neşriyat, 2007.
2. Tekin, Ahmet. Arapça Grameri (Nahiv-Sarf). İstanbul: İFAV Yayınları, 2010.
3. Maksudoğlu, Mehmet. Arapça Dilbilgisi. İstanbul: Marmara Üniversitesi Yayınları, 2004.
4. Çörtü, Meral. Arapça Dilbilgisi (Sarf ve Nahiv). İstanbul: İFAV Yayınları, 2012.

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Bakı Dövlət Universiteti**

**5713.01 – "Sami dilləri (ərəb dili)" ixtisası üzrə fəlsəfə doktoru proqramı əsasında ixtisas imtahanı sualları:**

1. Bəsrə qrammatika məktəbi və onun görkəmli nümayəndələri.
2. Bəsrə qrammatika məktəbinin əsas mənbələri və xüsusiyyətləri.
3. Kufə qrammatika məktəbi və onun görkəmli nümayəndələri.
4. Küfə qrammatika məktəbinin əsas xüsusiyyətləri.
5. Bağdad qrammatika məktəbi və onun görkəmli nümayəndələri.
6. Misir qrammatika məktəbi və onun görkəmli nümayəndələri.
7. Ərəb dili və ərəb əlifbası haqqında məlumat.
8. Ərəb dilində sait və samitlər. Heca. Vurğu. Səs birləşmələri [ey] [ay] [au].
9. Ərəb dilində ad qruplu sözlərin kəmiyyəti.
10. Ərəb dilində ad qruplu sözlərin təsniyəsi.
11. Ərəb dilində ad qruplu sözlərin cəmi. Daxili və xarici cəm.
12. Ərəb dilində ad qruplu sözlərin hallanması
13. Ərəb dilində konkret və mücərrəd isimlər.
14. Ərəb dilində təklik və toplu bildirən isimlər.
15. Ərəb dilində düzəltmə isimlər.
16. Ərəb dilində alınma isimlər.
17. Ərəb dilində mürəkkəb isimlər.
18. Ərəb dilində sadə isimlər.
19. Ərəb dilində feildən düzələn isimlər.
20. Ərəb dilində isimdən düzələn feillər.
21. Ərəb dilində sifətin dərəcələri.
22. Ərəb dilində sifətin müqayisə dərəcəsi.
23. Ərəb dilində sifətin üstünlük dərəcəsi.
24. Ərəb dilində rəng və fiziki nöqsan bildirən sifətlər.
25. Ərəb dilində nisbi sifətlər.

26. Ərəb dilində qrammatik cinsin leksik yolla ifadəsi.
27. Ərəb dilində qrammatik cinsin morfoloji əlamətləri.
28. Ərəb dilində saylar.
29. Ərəb dilində miqdar sayları.
30. Ərəb dilində sıra sayları.
31. Ərəb dilində il, ay, gün (tarixlərin ifadəsi).
32. Ərəb dilində kəsr sayları.
33. Ərəb dilində bölüşdürmə və qat sayları.
34. Ərəb dilində əvəzliklər. Əvəzliklərin növləri.
35. Ərəb dilində şəxs əvəzlikləri və işarə əvəzlikləri.
36. Ərəb dilində bitişən əvəzliklər və onların isimlərlə işlədilməsi.
37. Ərəb dilində bitişən əvəzliklər və onların feil, köməkçi nitq hissələri ilə işlədilməsi.
38. Ərəb dilində feilin keçmiş zamanı və işlənməsi.
39. Ərəb dilində feilin indiki-gələcək zamanı və işlənməsi.
40. Ərəb dilində feilin keçmiş zamanının məlum və məchul növü.
41. Ərəb dilində feilin indiki-gələcək zamanın məlum və məchul növü.
42. Ərəb dilində üçsamitli feillərin düzəltmə babları (II-X bablar) və onların xüsusiyyətləri.
43. Ərəb dilində üçsamitli feillərin düzəltmə babları (II-X bablar) və onların indiki-gələcək zaman məlum və məchul növləri.
44. Ərəb dilində üçsamitli feillərin düzəltmə babları (II-X bablar) və onların keçmiş zaman məlum və məchul növləri.
45. Ərəb dilində üçsamitli feillərin düzəltmə babları (II-X bablar), onların məsdər, ismi-faill və ismi-məfulları.
46. Ərəb dilində feilin arzu, şərt, əmr formaları.
47. Ərəb dilində feilin arzu forması və işlənmə şəraiti.
48. Ərəb dilində feilin şərt forması və işlənmə şəraiti.
49. Ərəb dilində şərt budaq cümləli tabeli mürəkkəb cümlə.
50. Ərəb dilində feillərin arzu formasının məsdər أن ilə işlədilməsi.
51. Ərəb dilində feilin arzu formasının məqsəd budaq cümləli tabeli mürəkkəb cümlələrdə işlədilməsi.

52. Ərəb dilində feilərin əmr və qadağan formaları.
53. Ərəb dilində kök samitlərinin fonetik xüsusiyyətlərinə görə feillərin bölgüsü.
54. Ərəb dilində salim feillərin düzəltmə bablarının (II-X) məsdər, ismi-fail və ismi-məfulları.
55. Ərəb dilində mudaaf feillər, müdaaf feillərdən düzələn məsdər, fail və məfullar.
56. Ərəb dilində həmzəli feillər, həmzəli feillərdən düzələn məsdər, fail və məfullar.
57. Ərəb dilində boş feillər, boş feillərdən düzələn məsdər, fail və məfullar.
58. Ərəb dilində misal feillər, misal feillərdən düzələn məsdər, fail və məfulları.
59. Ərəb dilində bağlayıcılar.
60. Ərəb dilində ön qoşmalar.
61. Ərəb dilində xəbəri ön qoşma ilə ifadə olunan ismi cümlə.
62. Ərəb dilində ədatlar.
63. Ərəb dilində şərt budaq cümləli tabeli mürəkkəb cümlə.
64. Feili cümlələrin subyektin iştirakına görə təsnifatı.
65. Ərəb dilində mürəkkəb isimlər.
66. Ərəb dilində isimlərin hallanma növlərinin təsnifatı.
67. Ərəb dilində dördsamitli feillərin III və IV babı, onlardan düzələn məsdər, ismi-fail və məfullar.
68. Ərəb dilində mübtəda budaq cümləli tabeli mürəkkəb cümlə.
69. Ərəb dilində bağlayıcısız təyin budaq cümləli tabeli mürəkkəb cümlə.
70. Ərəb dilində bağlayıcılı təyin budaq cümləli tabeli mürəkkəb cümlə.
71. Ərəb dilində tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlə.
72. Ərəb dilində uzlaşan təyini söz birləşməsi.
73. Ərəb dilində uzlaşmayan təyini söz birləşməsi.
74. Ərəb dilində izafət zənciri.
75. Ərəb dilində qarışıq təyini söz birləşmələri.